# 40 Şəhid




İtirəcək bir şeyə sahib olmadığım üçün haqqı qorxusuzca və azad şəkildə dilə gətirirəm. Əgər siz də yükünüzü yüngülləşdirsəniz azad olarsınız...
Şəhid Seyyid Müdərris

# Şəhid Seyyid Müdərris

Şəhid Seyyid Həsən Müdərris (1870-1937) öz dövrünün böyük fəqih və müctəhidlərindən biri olmuşdur. Ayətullah Müdərris həm Qacarlar, həm də Rza Xan zamanında "bizim siyasətimiz dinimizin, dinimiz də siyasətimizin özüdür" şüarı ilə çıxış etmiş və daim bu şüara uyğun şəkildə mübarizə aparmışdır. Şəhidin bu şüarı hazırki İran pulunun üzərində, öz rəsminin altında yer almışdır. Şəhid dəfələrlə parlament seçkilərində xalq tərəfindən seçilmiş və millətin haqqını müdafiə etmək yolunda hər cür zəhmətlərə qatlaşmışdır. Sonuncu seçkilərdə isə Rza Xanın əmri ilə ona heç bir səs toplamadığı bildirildi və Şəhid Müdərris bu gülünc hiyləgərliyə belə cavab verdi; "Bu necə ola bilər ki, mən heç bir səs də toplamayım? Axı mən özüm özümə səs vermişdim..." Bu pak şəxsiyyət ilə mübarizə apara bilməyəcəyini anlayan Rza Xan əvvəlcə onu sürgünə göndərdi, sonra isə qətlə yetirdi. Seyyidin ömür yolu və həyat fəaliyyəti vilayəti fəqih üsul idarəsinin qurulması yolunda şiə alimlərimizin İmam Xomeynidən (r.ə) əvvəl də əziyyətlər çəkdiklərinə açıq-aşkar bir dəlildir...


Mən Eduardo deyiləm...
Şəhid Eduardo Anielli

# Şəhid Eduardo Anielli

Eduardo Anielli (1954-2000) dünyanın ən zəngin şəxslərindən biri idi. Atası Gianni Anielli Ferrari, Fiat və Lamborghini kimi məşhur firmaların sahibi olmuşdur. Şəhid özü gənc yaşlarında Yuventus klubuna rəhbərlik etmişdi. Təvazökarlığı ilə daim seçilən Eduardo islam dinini araşdıraraq qəbul edir, İranda İmam Xomeyni (r) ilə tanış olduqdan sonra isə şiəliyi seçir. Şəhidin ən böyük arzusu İmam Zaman əleyhissəlamın zühurunu görmək və o Həzrətin silahdaşlarından olmaq idi. Məhdi adını çox sevdiyindən "məni Eduardo yox, Məhdi çağırın" deyirdi həmişə. Belə bir şəxsin şiəliyi seçməsi sionizmi bərk narahat etmişdi. Nəhayət sionistlər Eduardonu qətlə yetirdilər və onun pak bədənini körpüdən ataraq bu cinayəti intihar kimi göstərməyə çalışdılar. Amma hər kəs Aniellinin sionistlər tərəfindən şəhid edildiyini anladı. Şəhid mərhum İmamın alnından öpdüyü yeganə əcnəbi idi. İrana səfərlərinin birində jurnalistlər onun ətrafına yığışmış və şəkilini çəkmək istəmişdilər. Eduardo isə jurnalistlərə çox maraqlı bir cavab vermişdi; "Mənim şəkilimi niyə çəkirsiniz? Mən də sizin kimi bir şiəyəm. Sadəcə atam varlıdır...


Allahın sərhəddi birinci növbədə Allahın hakimiyyətindən başqa bir hakimiyyət tanımamaqla başlayır...
Şəhid Seyyid Qutb

# Şəhid Seyyid Qutb

“Mən İlahi meyarlarla edam edilirəmsə bu hökmə razıyam. Yox, əgər məni batil meyarlarla edama məhkum etmisinizsə, haqq yolda olduğum üçün əsla sizdən mərhəmət dilənməyəcəm! Mən Allah üçün gördüyüm işlərə görə əsla üzr istəmərəm”. Bu sözlər Seyyid Qutbun (1906-1966) məhkəmə zalında dediyi son sözlərdir. Seyyid Qutb məşhur Misir yazıçısı və mütəfəkkiri idi. İxvan təşkilatının üzvü olmuş, altımış və yetmişinci illərdə fikirlərilə müxtəlif ölkələrin müsəlman mübarizlərinə yol göstərmişdir. O, Camal Əbdülnasirin göstərişi ilə dövlət çevrilişinə cəhddə ittiham olunaraq edam edilmişdi. Ayətullah Xamenei şah rejiminə qarşı mübarizə dövründə onun “İslam və sivilizasiya problemləri”, “Gələcək İslama məxsusdur” və “Quranın kölgəsində” kitablarını, həmçinin yazı və məqalələrini zindanlarda fars dilinə tərcümə etmişdi. Rəhbər müsəlmanların Seyyid Qutbun düşüncələri ilə tanış olmasını çox istəyir və belə deyirdi; “Qutb gözəl qələmi və Quran düşüncəsi sayəsində islamın inqilabi simasını elə formada təqdim edir ki, məzhəbindən asılı olmayaraq hər bir müsəlman olan şəxs öz dini ilə qürur duyur”...



İmam Zaman (ə) qeybdə ikən zalımla döyüşməyənlər, İmam zühur etdikdən sonra da döyüşməzlər...

Şəhid Abbas Musəvi

# Şəhid Abbas Musəvi

Şəhid Abbas Musəvi (1952-1994) Hizbullahın Seyyid Həsən Nəsrullahdan əvvəlki baş katibi olmuşdur. O, gənclik illərində Fələstin dirəniş və müqavimət cəbhəsinə qoşulmuş və İsrailə qarşı döyüşlərdə ağır yaralar almışdır. Şəhid Musəviyə "fələstinlidən daha artıq fələstinli" deyirdilər. Abbas Musəvi daş ilə tank önünə çıxan fələstinliləri ümmətin qalibiyyət tablosu və İsrail üzərində qələbənin simvolu hesab edirdi. Seyyid Livanın Sur şəhərində və İraqın Nəcəf şəhərində uzun illər dini təhsil almış və hövzə təhsilinin paralelində ingilis və fransız dillərini də mükəmməl şəkildə öyrənmişdir. O, 1979-cu ildə Livana qayıdıb mədrəsə açmış və 1982-ci ildən Hizbullahın qurulmasında əsas şəxsiyyətlərdən birinə çevrilmişdi. Şəhid özünün beyət xütbəsində belə deyirdi; "İlahi! İmam Xomeyni və İmam Xamenei ilə olan əhd və beyətimə qiyamətə qədər sadiqəm. Mənə onlardan əvvəl şəhadət nəsib elə"... Seyyid Hizbullaha baş katib seçildikdən 9 ay sonra şəhadət arzusuna çatdı. Xanımı və körpəsi də onunla birlikdə İsrail tərəfindən şəhid edildi...


Bilirəm ki, haqq yol reyhansız və tikanlarla doludur...
Şəhidə Aminə Sədr

# Şəhidə Aminə Sədr

‘Bintül-hüda’ (hidayət qızı) kimi tanınmış Aminə Sədr (1937-1980) Şəhid Baqir Sədrin bacısı və İmam Musa Sədrin əmisi qızıdır. O, hələ iyirmi yaşlarında ikən feminizm və qərbpərəstliyə qarşı mübarizə aparmağa başlamışdır. Aminə Sədrin elmi əsərləri, məqalələri çap olunduqca xalqın ona qarşı rəğbəti daha da artmış və o, İraq qadınlarının ideoloji liderinə çevrilmişdir. Aminə Sədr heç bir universitet bitirməməsinə baxmayaraq qızlar üçün təhsil ocaqları təsis edirdi. Misirli professor Bintüş Şati Aminə Sədrə ‘siz hansı universitetin məzunusunuz?’ sualını verdikdə, o belə cavab vermişdi; “Mən ev universitetinin məzunuyam”. Həqiqətən də belə idi. Əsərləri dünyanın müxtəlif dillərinə tərcümə edilmiş Aminə Sədr elmi biliklərini qardaşından əxz etmişdi və bütün ömrünü də qardaşının yanında Səddam rejiminə qarşı mübarizəyə həsr etdi. Baqir Sədr həbs edilən zaman Aminə Sədr xalqı etiraza səsləmiş və bu yol ilə qardaşını azad edə bilmişdi. Qısa müddət sonra isə Səddam onların hər ikisini həbsə saldıraraq vəhşicəsinə qətlə yetirdi...


Xainin cəzası güllədir!...
Şəhid Muhəmməd Buxarai

# Şəhid Muhəmməd Buxarai

Şəhid Muhəmməd Buxarai (1945-1966) İranın Baş Naziri Həsənəli Mənsuru öldürmüş şəxsdir. Həsənəli Mənsur mərhum İmam Xomeyninin sürgün əmrini imzaladığı üçün Buxarai onu qətlə yetirmişdir. Məhkəmədə hakim Buxaraidən "baş nazirin ölüm fətvasını sənə kim vermişdi?" deyə soruşduqda Şəhid, "İmam Xomeyni" deyə cavab vermişdi. Hakim ona "bəs İmam sənə bu fətvanı harda verib?" sualını verəndə isə "İmam onları xain adlandıran zaman ölüm fətvalarını da vermişdi" deyə cavab verir... Şəhid Buxarai bu şeytani məhkəmədə 4 dostu ilə birlikdə edam cəzası aldı. Onların hamısı edam edildi, Şəhid Əndərzqudan başqa. Çünki Əndərzqu barədə edam hökmü qiyabən verilmiş və onu tapmaq mümkün olmamışdı. Buxarainin pak cənazəsi bir müddət sonra zalım şahın muzdurları tərəfindən qəbrindən çıxarıldı və yol kənarına atıldı. Şəhidin qohumları Buxarainin bədənini yığanda onunla bərabər edam edilmiş dostlarının da qəbrindən çıxarıldıqlarını gördülər və onların da nə'şini toplayıb apardılar. Bu rəzil hərəkət batil əhlinə babaları Müaviyədən əmanət qalmış bir irs idi...


Daim müsəlmanların qələbəsi üçün çalışdım və heç vaxt bu qələbədən özüm üçün bir təmənnam olmadı...
Şəhid Seyyidəli Əndərzqu

# Şəhid Seyyidəli Əndərzqu

“Bütün müsəlmanlara bu əziz və tanınmamış simanı tanımalarını tövsiyyə edirəm. Bu igid müsəlman 14 illik mübarizəsində SAVAK-ı o qədər qorxuya saldı ki, bu işin təsiri möcüzəyə bərabər idi...” -İmam Xamenei. Şəhid Əndərzqu (1940-1978) Seyyid Nəvvab Səfəvinin qoyduğu xətt üzrə zalım şaha qarşı mübarizə aparan partizanlardan olmuşdur. Silahdaşı Muhəmməd Buxarai ilə birlikdə Baş Nazirin öldürməsində əli olduğu üçün SAVAK tərəfindən axtarışa verilmiş və tapılmamasına rəğmən barəsində qiyabən ölüm hökmü oxunmuşdur. Axtarışda olmasına baxmayaraq İraqa qaçmış və mərhum İmam ilə görüşdükdən sonra yenidən İrana qayıtmışdır. Uzun illər şah əleyhdarı qrupları silahlandırmış və nəhayət partlayıcı maddə ilə Şahı öldürmək qərarına gəlmişdir. Amma SAVAK-la təkbaşına qanlı bir döyüşə girmək məcburiyyətində qaldığı üçün istəyinə çata bilməmişdir. O son nəfəsində güllə yarası almasına baxmayaraq dostlarının ələ keçməməsi üçün əlindəki sənədləri çeynəyib udmuş və silahında gülləsi bitdiyi üçün düşmənə əliyalın hücum edərək şəhadətə yetişmişdir...


Əgər şəhid olsam qiyamət günü qeyrətsiz
kişilərə və həyasız qadınlara haqqımı halal etməyəcəm...
Şəhid Əmir Hacı Əmini

# Şəhid Əmir Hacı Əmini

‘Əmirin məzarı başında idim. Bir gənc mənə yaxınlaşdı və şəhidin yaxını olub-olmadığımı soruşdu. Qardaşıyam dedim, əlimi sıxdı və Əmirin şəkilini gördükdən sonra müsəlman olduğunu və hər cümə axşamı gəlib Behişti Zəhrada şəhidi ziyarət etdiyini bildirdi’... İranın 25 yaşlı bu şəhidi müqəddəs müdafiə illərinin məşhur simalarındandır. O 27 saylı Hz.Muhəmməd ləşgərinin simsiz cihazlar operatoru idi. 1986-cı ildə “Kərbəla 5” hərbi əməliyyatı zamanı şəhadətə qovuşdu. Şəhid Əmirin üzü qanlı fotosunu çəkmiş fotoqraf Ehsan Rəcəbi deyir ki, şəhidə yaxınlaşanda bir damcı qan axıb dodağında qalıbmış Hacı Əmirin. Dodaqlarını tərpədir və zikr deyirmiş. O halda dünyadan köçübmüş. Şəhid özünün vəsiyyətnaməsində belə yazır; ‘Uzun müddət nəfsimlə savaşdıqdan sonra nəhayət ki, bu əziyyətdən qurtulmanın yolunu tapdım və nəticəni bu cümlədə xülasələşdirdim; İlahi, məni Özünə aşiq et!...’ Əmirin duası qəbul oldu. Aqilanə düşündü, aşiqanə yaşadı və Mə’şuqunun adını zikr edərək şəhid oldu...


İstəyirəm elə formada şəhid olum ki, bədənimdən geriyə heç bir şey qalmasın. İmam Hüseyndən utanıram...
Şəhid Salah Ğandur

# Şəhid Salah Ğandur

Salah Ğandur (1968-1995) elə bir şəhiddir ki, şəhid olacağı saniyəni belə bilirdi... O təkbaşına İsrailin hərbi karvanına hücum etmiş və o qədər israilli əsgər öldürmüşdü ki, ölüləri və yaralıları daşımaq üçün bölgəyə 10-a yaxın helikopter göndərmişdilər. Şəhid Salah bəlkə də yeganə insan idi ki, Fələstin və Livan torpağını qoxusu vasitəsilə seçə bilirdi. Bucür qəribə istedadlara malik olduğu üçün Hizbullahdakı döyüşçülər ona "Ən Çətin Əməliyyatların Adamı" ləqəbini vermişdilər. Ən qorxulu və təhlükəli ərazilərə daxil olur, mina yerləşdirir və İsrail hərbçilərinin minaya düşən maşınlarını görüb 'Əlhəmdulillah' deyərək bölgədən ayrılırdı. Şəhid Salah Ğandur kəşfiyyat zamanı yolları torpağa toxunaraq tanıyardı. Onun torpaqla olan qəribə rabitəsi hələ də hər kəs üçün sirr olaraq qalmaqdadır. Üstün istedadlarına görə təkbaşına hücum əməliyyatına Hizbullahın bütün rəsmilərindən yox cavabı almış, nəhayət Həsən Nəsrullahın özünə müraciət edərək Seyyiddən hə cavabı ala bilmişdir. Seyyid özü də anlamışdı ki, Salah şəhid olmuş döyüş yoldaşları üçün darıxıb...


Şimr min il əvvəl ölüb. Sən bugünün Şimrini tanı. Bugünün Şimri İsraildir. Allaha and olsun Fələstini dəstəkləmək vacibdir. Namaz, oruc kimi vacibdir...
Şəhid Mürtəza Mütəhhəri

# Şəhid Mürtəza Mütəhhəri

“O dərsimdə iştrak edəndə ruhum sevincdən rəqs edirdi...” Şəhid Mütəhhəri (1919-1979) barədə deyilən bu cümlə Əllamə Təbətəbaiyə aiddir. 1969-cu ildə Şəhidin həbsinə səbəb olan anti - İsrail çıxışına ən böyük dəstəyi verən də məhz Əllamə Təbətəbai olmuşdur. Mərhum Əllamə Şəhid Mütəhhərinin çağırışı ilə fələstinlilərə yardım toplamaq üçün hesab nömrəsi belə açmışdı. O öz müsahibəsində şəhidin fövqəladə idrak və təfəkkürünə çox diqqət çəkirdi. Ustad hələ uşaq ikən məktəbi o qədər sevirmiş ki, bir dəfə aylı gecəni sübh çağı zənn edib məktəbə yollanmış, qapının kilidli olduğunu görüb, orada gözləyərək yatıb qalıbmış. 1955-ci ildə Ustad Tehranın İlahiyyat fakültəsində elmi fəaliyyətə başlamış, qələmə aldığı "Dastan - Rastan" kitabı 1965-ci ildə YUNESKO mükafatı almışdır. İnqilab qələbə çaldıqdan sonra Furqan adlı azğın bir qrup tərəfindən şəhid edilən Ustadın pak bədəni Hz.Məsumənin hərəmində dəfn edilib. Mərhum İmam Şəhid barədə belə buyurmuşdur: “Elə bir şəxsi itirdik ki, paklıqda onun bənzəri yox idi...”


Göyün yolları həmişə açıqdır.
Sən yetər ki, uçmağı bil...
Şəhid Babək Nuri

# Şəhid Babək Nuri

Babək Nuri (1992-2018) İran azərisidir. Rəşt şəhərində dünyaya göz açıb və Hz.Zeynəbin pak hərəmini vəhhabilərdən müdafiə edərkən şəhidlik mərtəbəsinə ucalıb. Babək Tehranda bakalavr dərəcəsini almış ali təhsilli bir gənc idi. Həmçinin Qızıl Aypara kimi cəmiyyətlərdə də fəaliyyəti var idi. Atası deyir ki, Babək altı ay idi Sepaha üzv olmuşdu. Nəhayət Suriyada cihada qatılmaq icazəsi gəldi. Amma mənimlə sağollaşmağa taqəti çatmadı. Yuxarı otaqdan çantasını aldı və getdi. Gedərkən ikimiz son dəfə göz-gözə gəldik. Bu bizim vida baxışımız idi. Qısa bir müddət sonra isə şəhidlik xəbəri gəldi... O gəncliyinin və yaraşığının zirvəsində ikən dünyəvi bağlardan qırıldı və öz tə'biri ilə desək "uçmağı bacardı"... Onun öz təhsilini davam etdirmək və Avropada yaşamaq şansı da var idi. Amma o hərəmin müdafiəsi daha vacibdir deyərək bu yolu seçdi... Babək İmam Rzanı çox sevirdi və hər il Məşhədə imamın ziyarətinə gedirdi. İmamın şəhadət gecəsi də şəhadətə yetişdi. O sanki Allahın yer üzündəki mələyi idi və Allah Öz mələyini yanına aldı...


Müsəlman kimi yaşamağın mümkün olmadığı yerdə müsəlman kimi ölməyin əlbəttə bir yolu vardır...
Şəhid Malcolm X

# Şəhid Malcolm X

Şəhid Malcolm X (1925-1965) qaradərili amerikalı müsəlmanların rəhbəri olmuşdur. Onun əsl soyadı X yox Little idi. Məchulluq bildirən X soyadını götürməsinin isə çox acı tarixi səbəbləri vardır. Malcolm X afroamerikalıların avropalı quldarlar tərəfindən Afrikadan oğurlanaraq Amerikaya qul kimi gətirilməsini bütün dünyaya çatdırmaq üçün bucür yola əl atmışdı. Çünki quldarlar həyatlarını oğurladıqları qulların soyadlarını da oğurlayaraq onlara öz soyadlarını verirdilər. Şəhid atalarının soyadını bilmədiyi üçün Little soyadından imtina etmiş və X soyadını özünə götürmüşdü. İslamı qəbul etdikdən sonra isə adını da dəyişdi və Hacı Malik Şahbaz etdi. Onun keşməkeşli həyatı bütün azadlıqsevərlər üçün örnəklərlə doludur. Bütün həyatını Amerikada islam dininin yayılmasına və qaradərili insanların ibtidai insani hüquqlarından məhrum edilməsinə qarşı mübarizəyə həsr edən Malcolm sərt çıxışları ilə hökuməti hədəf alır və haqlarının təmin olunmayacağı təqdirdə silahlı mübarizəyə başlayacaqlarını bildirirdi. Hökumət buna müqabil Fevral ayının 21-ci günü tribunada çıxış edərkən onu 21 güllə yarası ilə şəhid etdi...


İnsan əqidəsinə dəlil və sübutlarla elə bağlanmalıdır ki, dünyada həmin əqidəni onunla bölüşən kimsə qalmasa belə, yenə də inancından əl çəkməsin...
Şəhid Əbdül Hüseyn Dəstğeyb

# Şəhid Əbdül Hüseyn Dəstğeyb

Şəhid Əbdül Hüseyn Dəstğeyb (1913-1981) Şah rejiminə qarşı mübarizədə Şiraz xalqının rəhbəri olmuşdur. Dəfələrlə həbs olunmuş və sürgün həyatı yaşamış Ayətullah Dəstğeyb mərhum İmamın nümayəndəsi və Xibrəqan məclisinin üzvü idi. Şəhidin Pəhləvi rejiminə etirazlarının başında işğalçı İsrail rejimini tanıması gəlirdi. Ayətullah Dəstğeyb İmam Zeynul-Abidinin (ə.s) nəslindən idi və Şirazda 700-800 illik tarixi olan bir soydan gəlirdi. Aşura gecəsi dünyaya gəldiyi üçün ailəsi ona ‘Hüseyn nökəri’ mənasına gələn ‘Əbdül Hüseyn’ adını vermişdi. Şəhid pendir, soğan, duz və çörək ilə doyan, ət yeməkdən çəkinən və mütəvazi bir evdə yaşayan insan idi. Çox oruc tutar və gecə ibadətlərini davamlı şəkildə yerinə yetirərdi. Ayətullah Dəstğeyb az danışar, daha çox dinləməyə üstünlük verər və daim dəstəmzalı gəzərdi. Mərhum Şəhidin müəllifi olduğu ‘Böyük Günahlar’ kitabı dilimizə tərcümə olunmuşdur. Bu kitab insanın mənəvi təkamülündə misilsiz rol oynayır. Əbdül Hüseyn Dəstğeyb inqilabdan 2 il sonra, cümə namazına gedərkən terror edilərək şəhadətə çatmışdır...


Allaha aşiq olun. Əgər Allaha aşiq olsanız,
o sizi baha qiymətə alacaq...
Şəhid Möhsün Höccəci

# Şəhid Möhsün Höccəci

"Şəhidin kəsilən boğazına and olsun ki, onların hamısını öldürməmiş sakit oturmayacağıq..." Möhsün Höccəcinin şəhidlik xəbəri gələn zaman Hacı Qasim belə bir bəyənatla çıxış etdi və çox keçmədi ki, Sərdar Süleymani Şəhidin intiqamını İŞİD vəhhabilərindən aldı. Möhsün Höccəci əsir düşərkən vəhhabilərin kamerası qarşısında dik dayandı və 2 gündən sonra, Avqust ayının 11-də boğazı kəsilərək şəhid edildi. 26 illik qısa ömrü 2017-ci ildə Həzrəti Zeynəb həreminin müdafiəsi zamanı sona çatdı. Şəhidin pak nə'şi Hizbullah vasitəsilə vəhhabilərdən alındı və İrana gətirildi. Cənazə namazını Ayətullah Xamenei özü qıldı və şəhid doğulduğu İsfahan şəhərində torpağa tapşırıldı. Nurani qəbri həmişə ziyarət olunur və xatirəsi hər zaman Kərbəla faciəsini yada salır. Möhsün Höccəci özündən geriya yüzlərlə xatirə və Əli adlı kiçik bir övlad qoydu. Səs yazılarının birində belə deyir; "Əli səni çox sevirəm, ananı da. Amma bəzən, bəzi şeylərdən ayrılmaq, daha ucasına çatmaq üçündür. Məni bağışla ki, səni bu kiçik yaşda atıb gedirəm. Əgər biz getməsək Hz.Zeynəbin (s.ə) həreminə cəsarət edərlər..."


Qəbrimin üstünə “Əsgər Süleymani” yazın...
Şəhid Qasim Süleymani

# Şəhid Qasim Süleymani

Qasim Süleymani (1957-2020) yoxsul bir ailədə dünyaya gəlmişdir. Yeniyetməliyini atasının borclarını ödəmək üçün inşaatlarda çalışaraq keçirən Süleymani boş vaxtlarında idmanla məşğul olmuşdur. 1979-cu ildə hələ 22 yaşında ikən İslam İnqilabı ordusuna qatılmış və İranın müxtəlif bölgələrində baş qaldıran qiyamların yatırılmasında iştrak etmişdir. İraqın İrana hücumu zamanı yerli əhalidən özünü müdafiə batalyonları hazırlamış və artıq 23 yaşında ikən komandir rütbəsi almışdır. Müharibə bitdikdən sonra doğulduğu Kerman əyaləti üzrə İnqilab Keşikçiləri Korpusu Komandiri vəzifəsinə təyin olunmuşdur. 1998-ci ildən Qüds Qüvvələri rəhbəri vəzifəsində çalışsa da, ölkə daxilindəki proseslərdən kənarda qalmamış və 2009-cu ildə İslam İnqilabı əleyhinə qalxmış üsyanı birbaşa yatıran şəxs olmuşdur. Hacı Qasim 2006-cı ildə İsrail-Hizbullah döyüşündə şəxsən iştrak etmiş və Hizbullahın qələbəsini təmin etmişdir. İŞİD'in ayağını məntəqədən kəsmiş bu pak insana Ayətullah Xamenei həmişə 'Yaşayan Şəhid' deyirdi. Bəli... Qasim həmişə yaşayacaq!


Səngərdə belə olsa düşmən qarşısında əyilmək Allaha qarşı şirkdir...
Şəhid Mirqasim Mirhüseyni

# Şəhid Mirqasim Mirhüseyni

23 yaşında general rütbəsinə ucalmış bir gənc; Şəhid Mirqasim Mirhüseyni (1963-1987). O, öz əsgərlərinə "irəli" yox, "arxamca gəlin" deyən generallardan idi. Mirhüseyni sərtlik və həlimliyi İmam Əli (ə) kimi öz vücudunda birləşdirmişdi. Səngərdə şücaətli, əsirlərə qarşı isə həlim idi. Hər hansı bir əsir Mirhüseyninin yanında azacıq qaldıqdan sonra onu qucaqlayıb öpürdü. Şəhid Mirhüseyni ağır yaralandığı döyüşlərdə də geri çəkilmir, "Hacı Qasimə nə cavab verəcəm?!..." deyirdi. Elə bir əməliyyat yox idi ki, Mirhüseyni orda yaralanmasın. Beldən aşağısı gipsdə olan zamanlarda belə əlil arabası ilə universitetləri və məktəbləri gəzir, xalqı cəbhəyə səsləyirdi. Bir dəfə yanına bir əsgər almış və motosikletlə düşmən tərəfə keçərək 8 tank məhv etmişdi. Düşmənin ayaq səsləri eşidiləndə də öz gecə namazını saxlamazdı. Şəhadətindən az əvvəl alnını göstərib, güllə burdan dəyəcək demişdi. Necə demişdisə, eynilə o cür də oldu. Burada islamın taleyi həll olunur deyib düşmənə tərəf atılmış və əlbəyaxa döyüşdə alnından güllə yarası alaraq şəhadət mərtəbəsinə ucalmışdı...


Edamından 22 il sonra bəraət almış ruhani...
Şəhid Molla Kamiyab

# Şəhid Molla Kamiyab

Molla Kamiyab (1870-1937) Xalq Artisti Sidqi Ruhullahın böyük qardaşıdır. Özünün dəhşətli dərəcədə gözəl səsi olmuşdur. Hər kəs onun azan və mərsiyə deməsinin vurğunu imiş. Cabbar Qaryağdıoğlu və Seyid Şuşinski kimi böyük şəxsiyyətlərlə də yaxın dost olmuşdur. Əslən içərişəhərdən olan Molla Kamiyab 20 yaşında İrana yollanmış, Qum və Məşhəddə dini təhsil almışdır. İranda evlənmiş, təhsilini başa vurduqdan sonra isə Bakıya qayıtmışdır. Bakıda mərsiyəxanlıq və ruhaniliklə yanaşı təbibliklə də məşğul olmuşdur. Yüzlərlə insanı təbii bitkilərlə müalicə etmiş şəhid kasıblara əl tutması ilə də məşhurluq tapmışdır. 1929-cu ildə din xadimi olduğu üçün Sibirə sürgün edilmiş, İçərişəhər və Buzovnadakı mülkü müsadirə olunmuşdur (Buzovnadakı mülk indi uşaq bağçasıdır). 1934-cü ildə sürgündən qayıtmış, amma Bakıya buraxılmamışdır. Qubaya yollanıb, bağban işləyən Molla Kamiyab heç bir təqsiri olmamasına rəğmən 1937-ci ildə 10 dəqiqəlik məhkəmə ilə edam edilmiş, 1959-cu ildə isə bəraət almışdır...


Ey İmam Xomeyni! Səni tanıyanlar xoşbəxtdir.
Sənin yoluna tabe olanlar xoşbəxtdir...
Şəhid Mustafa Mazih

# Şəhid Mustafa Mazih

Mustafa (1968-1989) İmam Xomeyniyə (r) qəlbən bağlanmış livanlı bir gənc idi. Mərhum İmamın (r) islamı təhqir etmiş yazıçı Salman Rüşdü barədə verdiyi ölüm fərmanını icra etmək üçün Londona yollanmış və Salmanın qaldığı oteldə xadimənin şübhələnməsi üzərinə təhlükəsizlik qüvvələri tərəfindən şəhid edilmişdi. Salman birbaşa Britaniya kral ailəsinin tapşırığı ilə mühafizə olunurdu. Şahzadə Charles Salman barəsində; "O ingilis vergi mükəlləfləri üçün sadəcə ağır bir yükə çevrilib" deyirdi. Bəli, doğrudur ki, ingilislər Mustafanı şəhid etmiş və Mustafa məqsədinə çata bilməmişdi, amma bu hadisədən sonra demək olar ki, dünyanın bütün ölkələrində həmin kitab qadağan edilmişdi. Mərhum İmamın (r) fətvasına nəzər salsaq görərik ki, İmam “qeyrətli müsəlmanlar ‘Şeytan Ayələri’ kitabının müəllifini harda tapsalar öldürsünlər ki, kimsə bir daha uca Allahı söyməyə cürət etməsin" deyə buyurur. Həqiqətən kimsə Salmanın kitabını nəşr etməyə belə cürət etmədi və bu addımı atmaq istəyənlər müxtəlif illərdə qətlə yetirildilər. Ailəsi Mustafanın nə’şini yarım il sonra ingilislərdən pulla ala bildi...


Biz təslim olmarıq. Ya qalib gələrik, ya da ölərik. Biz ölsək də qalibik. Siz isə məğlubsunuz. Qalib gəlsəniz də məğlubsunuz. Amma bunu öləndə anlayarsınız və onda çox gec olar...
Şəhid Ömər Muxtar

# Şəhid Ömər Muxtar

Liviya xalqının böyük mücahidi, çöl aslanı ləqəbli Ömər Muxtar (1858-1931) 73 illik ömrünün 20 ilini İtaliya işğalına qarşı mübarizəyə həsr etmişdir. O 1911-ci ildə italiyanların Liviyaya hücumuna qarşı mübarizə aparmaq üçün könüllü şəkildə orduya yazılaraq meydana atılmışdır. 1912-ci ildə İtaliya və Osmanlı arasında imzalanan Uşi müqaviləsinə görə meydanda tək qalmış liviyalılar yalnız yerli partizan döyüşçüləri hesabına mübarizə apara bilirdilər. Qonşu ölkələrdən gələn yardımların da bir müddət sonra kəsilməsinə baxmayaraq Ömər Muxtar müqavimət göstərir və təslim olmurdu. Nəhayət bu böyük mücahid döyüşdə yaralanaraq italyanlara əsir düşdü və italyanlar onu asaraq şəhid etdilər. İtalyanlar Liviyada ümumilikdə bir milyondan daha artıq müsəlmanı vəhşiliklə qətlə yetirmişdilər. Məhkəmədə hakim Ömər Muxtara mücahidlərə cihadı dayandırmalarını əmr edən bir sərəncam yazması müqabilində edamdan qurtulacağı və digər bir ölkəyə sürgün ediləcəyi barədə vəd verir. Ömər Muxtar isə həmin o tarixi cavabını verir; “Mənim Allahın təkliyinə şəhadət gətirən barmağım əsla batil bir şey yazmaz”...


Əldən gedən həm vətən, həm imandı
İmdadə yet, Əbəlfəzlim amandı...
Şəhid Dostəli Mirzəlizadə

# Şəhid Dostəli Mirzəlizadə

Ruhani alim Əhli-Beyt şairi Şəhid Məşədi Dostəli (1974-1993) İmişlidə dindar bir ailədə dünyaya gəlmişdir. 12 yaşına çatdıqda tanınmış ruhani mərhum Molla Əhmədin yanında iki il Quran və İslami elmlərin təhsili ilə məşğul olmuş, ərəb və fars dillərindən imtahan verdikdən sonra Qafqaz Ruhanilər idarəsi Dostəlini Qazaxa axund təyin etmişdir. 1990-cı ildə Dostəli İmam Rzanı (ə) ziyarət üçün sərhəddi gecə ikən keçib Məşhəd ziyarətinə müvəffəq olur və mərhum Ayətullah Mürəvvic ağa ilə görüşür. Mürəvvic ağa onu imtahan etdikdən sonra öz əlləri ilə başına əmmamə qoyur. Ayətullah Mürəvvicin göstərişi ilə sərhəddin hər iki tərəfindən sənədsiz keçir və vətənə qayıdır. Qarabağda müharibə başlayan zaman Dostəli atası ilə vidalaşıb könüllü şəkildə Bakıya əsgərliyə yola düşür. 4 ay hərbi təlimdən sonra 10 günlük evə buraxılır və 10 gün tam bitməmiş cəbhəyə yollanır. Döyüşdə yaralanır və yaralı bədəni döyüş zonasından çox gec çıxarılır. 3 gün sonra isə şəhadətə yetişir. Əsgər yoldaşları Dostəlinin şəhid olduğu son ana qədər Yasin zümzümə etdiyini nəql edirlər...


Biz İmam Zamanın (ə) intizarında deyilik, o həzrət bizim intizarımızdadır. Gözləyir ki, nə vaxt özümüzü düzəldəcək və islah edəcəyik ki, zühur etsin...
Şəhid Əhməd Məşləb

# Şəhid Əhməd Məşləb

"Əhməd əgər yenidən dirilsə, bir də ona deyərəm ki, get Həzrəti Zeynəbin (s) yolunda fəda ol"... Bu sözlər hərəm müdafiəçisi Şəhid Əhməd Məşləbin (1995-2016) anasına məxsusdur. Əhməd livanlı zəngin bir ailədə dünyaya gəlmişdi. Maşını, villası və lüks həyat şəraiti var idi. Amma o bütün dünya nemətlərindən əl çəkərək hərəmin müdafiəsinə qalxdı. Zatən Şəhid əlindəki maddi imkanlardan şəriətə uyğun şəkildə istifadə edən və zənginlik səbəbindən tüğyana mürtəkib olmayan biri idi. Yaralanırdı, amma sağalan kimi yenidən cəbhəyə qayıdırdı. O Hizbullahda çox sevilirdi. Yaxın bir dostuna sonuncu döyüş əməliyyatından əvvəl ən böyük arzusunun şəhadət olduğunu bildirmişdi. İmam Rzaya olan dərin məhəbbəti səbəbindən cihad ləqəbini "Ğəribe-Tus" yəni Xorasan Qəribi seçmişdi və İmam Rza kimi qəriblikdə, Suriyanın İdlib vilayətində şəhid oldu. Vəsiyyətnaməsində belə deyirdi; Hicabınızı qoruyun. Bu ən mühüm məsələdir. Hicaba qarşı laqeyd olmayın. Həzrəti Zeynəb (s) kimi yanaşın ona. Hicab bədəninizi örtməyiniz üçündür. Bəzənib özünüzü nümayiş etdirməklə hicabın hörmətini aradan aparmayın...


Namaza demə işim var, işə de ki, namaz vaxtıdır...
Şəhid Əli Rəcai

# Şəhid Əli Rəcai

İranın şəhid prezidenti Əli Rəcai (1933-1981) inqilabın yeni çağlarında ölkənin təhsil naziri vəzifəsində çalışırdı. Şəhid Rəcai təhsil naziri işlədiyi bir il ərzində təhsil sistemində bu gün də rəhbər olan tədris proqramı hazırlamışdır. İxtisasca müəllim olan Rəcai şah zamanında ziyalılardan ibarət "Müəllimlər İslam Birliyi" təşkilatını yaratmışdır. Bununla da inqilab çox rahat şəkildə unversitet və orta məktəblərin qapılarından içəri daxil ola bilmişdir. Rəcai Fransa, Türkiyə, daha sonra isə Suriyaya səfər etmiş və burada nüfuzlu din xadimləri, siyasi liderlərlə görüşərək İranın mövcud vəziyyətini onlara anlatmağa çalışmışdır. Şəhid 1975-ci ildə zalım şahın əmri ilə həbs olunaraq 4 il azadlıqdan məhrum edilmişdir. Zalım şahla mübarizəsinin bütün dövrlərində Rəcainin yanında olan dostu Bahunər inqilabdan sonra da Rəcainin kənarında yer almış, İranın baş naziri vəzifəsini yerinə yetirmiş və onunla birlikdə terror hücumu nəticəsində şəhadətə çatmışdır. İmam buyurmuşdur; "Onlar birlikdə yaşadılar və birlikdə də şəhadətə yetişdilər..."


Ağa Xamenei! Görəsən bu işgəncələr altında ölsəm şəhid sayılaram?!...
Şəhid Abbas Musəvi Quçani

# Şəhid Seyyid Abbas Musəvi Quçani

Şəhid Seyyid Abbas Musəvi Quçani (1945-1982) mübariz ruhanilərdən və Ayətullah Xameneinin Məşhəddəki tələbələrindən olmuşdur. O, SAVAK tərəfindən dəfələrlə həbs olunmuş, o cümlədən, 1971-ci ilin Oktyabrında şah rejiminin 2500 illik bayramlarına etiraz zamanı Ayətullah Xamenei ilə əməkdaşlığına görə azadlıqdan məhrum edilmişdir. İmam Xamenei onunla həbsxanadakı xatirələri barədə deyir; Bəziləri işgəncə altında məcbur qalaraq müəyyən etiraflar edirdilər. Seyyid Abbasın nəyisə etiraf etməsi isə çox böyük faciələrə səbəb ola bilərdi. Ona misilsiz bir vəhşiliklə işgəncə verirdilər. Yeriyə bilmir, ayaqyoluna gedəndə yanı üstə sürünürdü. Nəzarətçilər başa düşməsin deyə Qurani-Kərim oxuduğum intonasiya ilə ona ərəbcə deyirdim: "Dözümlü ol, ey böyük Seyyid! O qədər səbr elə ki, bu cinayətkarlar ümidlərini səndən tamam üzsünlər... Heç bir söz demə, Allah səni mütləq xilas edəcəkdir..." Seyyid Abbas sona qədər dözdü və düşmənə heç bir məlumat vermədi. İnqilabdan sonra 1982-ci ildə Xürrəmşəhrin azad edilməsi üçün keçirilən əməliyyatda şəhid oldu...


Şiəlik bizə düşməndən aman diləməməyi, qanımızla haqqımızı geri almağı və qanımızı azadlığımıza fəda etməyi öyrətdi. Əgər silahı əlinə almasan, qul bazarında satılan dəyərsiz bir əşyaya çevrilərsən...
Şəhid Cihad Muğniyə

# Şəhid Cihad Muğniyə

Cihad Muğniyə (1990-2015) Hizbullah komandiri Şəhid İmad Muğniyənin oğludur. O, İsrailin hava hücumu zamanı işğal altındakı "Golan Təpələri" yaxınlığında şəhadətə çatmışdır. Hər kəs onu ilk dəfə 2008-ci ildə atasının şəhadəti münasibətilə təşkil olunmuş məclisdə çıxış edərkən tanımışdı. İsrail mətbuatı onu Nəsrullahın mühafizəçisi kimi təqdim edirdi. Şəhadətindən bir həftə əvvəl ailə üzvləri ilə görüşərkən, ondan '2015-ci ildə nə planların var?' deyə soruşmuşdular. O isə 'gələn həftə deyərəm' şəklində cavab vermiş və gələn həftə evə pak cənazəsi gəlmişdi. Ailəsi Cihadın şəhid olması səbəbi ilə hüznə qərq olub ağlasa da bir tərəfdən də sevinir və övladlarının bu yolu seçdiyi üçün uca Allaha həmd və səna edirdilər. Şəhid olmaq bu ailənin üzvlərinə Allahın lütfü və kərəmidir. O özü anasından şəhadətə çatması üçün dua etməsini istəmişdi və anası da daim övladının arzusuna yetişməsi üçün dua edirdi. Nənəsi Cihadın yasında deyirdi; Əziz balam, tez getdin, amma Allaha şükrlər olsun ki, bu ailənin taleyinə şəhidlik yazıb və Allah bu uca şəhidlik məqamını Öz xüsusi dostlarına hədiyyə edir...


Əsgərlərimin qablarını yumağımın savabı onlara komandirlik etməyimin savabından daha artıqdır...
Şəhid Əbdülhüseyn Burunsi

# Şəhid Əbdülhüseyn Burunsi

Şəhid Əbdülhüseyn Burunsi (1942-1985) İran İslam İnqilabdan əvvəl bənna idi. Din yolunda çoxlu zəhmətlər çəkmiş, dözülməz işgəncələr görmüşdü. İnqilabdan sonra isə elə ləyaqətlə meydana atılmışdı ki, adı dillər əzbəri olmuş, imperialist dairələri narahat etmiş və zalım küfr öndərləri onun başına mükafat təyin etmişdilər. Bir bənnanın belə müvəffəqiyyətinin səbəbi isə uca Allah qarşısında qeyd-şərtsiz bəndəliyidir. Vəsiyyətnaməsində belə deyirdi; “Komandirlik mənə görə üstünlük deyil. Dedilər ki, bu bir şər’i vəzifədir və gərək qəbul edəsən. Mən də qəbul etdim”. Şəhidin həyatı barədə yazılmış “Allahdan nur almış insan” adlı bir kitab var. Həmin kitabda yazılanları hər kəs oxusa başa düşər ki, bu sadə insan həqiqətən Allahdan nur almış biri idi. Onun ömür yolu elə qəribə möcüzələrlə doludur ki, Ayətullah Xamenei bu pak Şəhid haqqında belə buyurur; “Şəhidlər barədə çoxlu kitablar yazılır və mən özüm də bu kitabların müştərisiyəm. Usta Əbdülhüseyni isə şəxsən tanıyırdım və onun barədə yazılmış kitabı həqiqətən çox istərdim ki, oxuyasınız”...


Əgər gecə yarı evinizə oğru daxil olsa və namusunuza təcavüz etsə, namusunuzu qorumaq üçün müctəhiddən fətva gözləyəcəksiniz?!... Bəs elə isə islama təcavüz edənləri öldürmək üçün də müctəhiddən fətva gözləməyə ehtiyac yoxdur. Bunu islamın bütün fəqihləri deyir...
Şəhid Nəvvab Səfəvi

# Şəhid Nəvvab Səfəvi

"Məndəki inqilabi düşüncələri Seyyid Nəvvab formalaşdırmışdır." İmam Xameneinin Nəvvab Səfəvi (1924-1956) barəsində dediyi bu cümlə şəhidin hansı dərəcədə uca bir məqama sahib olduğunu göstərir... Hələ hövzə təhsili aldığı zamanlardan zalım şahla mübarizəyə özünü mükəlləf bilən şəhid mübarizə meydanına Rza Xanın Nəcəfül-Əşrəfdə dəfn edilməsinə mane olmaqla atılmışdır. İslamı təhqir etmiş Əhməd Kəsrəvi kimi məlunları öz əlləri ilə güllələyərək cəzalandıran Nəvvab sonradan İslam fədailəri təşkilatını yaratmış və İran xalqını təhqir edən Baş Nazir Rəzməranın qətlinə qədər mübarizə dairəsini genişləndirmişdir. Nəvvab Rza şahla görüşündə mizə yumruq vurub onu danlayan yeganə insan olmuşdur. Seyyid üçün həyatda qorxu adlı bir şey yox idi, ona görə də İsrail ilə sərhəddə olarkən tikanlı telləri keçərək işğal altında olan məscidlərdə namaz qılardı. Şəhid edam hökmünü eşidərkən belə sevinmiş və səcdəyə getmişdi. Edama gedərkən başını bir anlıq belə aşağı əyməmiş və dediyi son sözü "Əşhədu ənnə Əliyyən vəliyyullah" olmuşdur...


Harda zülm varsa ilk növbədə şiə ona qarşı çıxmalıdır
və zülmlə mübarizədə ön cəbhədə olmalıdır...
Şəhid Mustafa Sədrzadə

# Şəhid Seyyid Mustafa Sədrzadə

Xanımını bir uşaqla qoyub Suriyaya gedirsən? -Xanımım, uşağım və yeddi arxa dönənim Bibi Zeynəbin hərəminin bir daşına fəda olsun. Bu sözlər Seyyid Mustafa Sədrzadəyə (1986-2015) məxsusdur. Ona “zirək şəhid” də deyirlər. O, Hz.Zeynəb (s) hərəminin müdafiəçisi olmaq üçün müraciət etmiş, lakin qəbul edilməyincə Fatimilər briqadasına gedərək özünü əfqan kimi təqdim eləmiş və bu yol ilə Suriyadakı vəhhabilərə qarşı döyüşlərə qatıla bilmişdi. İmanı və yüksək döyüş bacarıqları ilə orduda günü-gündən yüksəlmiş və nəhayət bir gün əsgərlərin önündə çıxış edərkən Hacı Qasim onu görmüşdür. Şəhid Süleymani bir tehranlının gəlib necə əfqanlara rəhbərlik etdiyinə təəccüblənmiş və barəsində araşdırma apararaq həqiqətləri öyrənmişdir. Qasim Süleymani deyir; “Zirək adam o deyil ki, var-dövlət ardınca gedir və ya insanları aldadır. Zirək adam bax beləsinə deyirlər. Bəsirətli o şəxsdir ki, fürsətləri bu yolla əldə edir. Yəni yaranmış fürsətləri yaxşı niyyətlər üçün istifadə edir. O, nə üçün bu işi gördü? Ona görə ki, Allah cihad yolunu tutan şəxsləri sevir. Allah mücahidləri digərlərindən üstün etmişdir”...


Əql aşiq olsa, eşq aqil olar.
Eşq aqil olanda sən şəhid olarsan...
Şəhid Mustafa Çamran

# Şəhid Mustafa Çamran

Şəhid Mustafa Çamran (1932-1981) İmam Musa Sədrin yaxın dostu və Hizbullahın qurulmasında müstəsna rolu olan şəxslərdəndir. O alim idi və Amerikada NASA-nın yüksək vəzifəlilərindən biri olmaq üzrə ikən Allahın rizayəti yolunda vətəninə qayıtmış və cihadda iştrak etmişdi. Şəhid alman, fransız, ingilis, ərəb və türkcə danışa bilirdi. Çamran həm də yazıçı idi. “Biz və Allah”, “Ruhun irfanla yüksəlişi” kimi əxlaqi əsərləri ilə yanaşı öz fizika sahəsi üzrə ingilis dilində elmi kitablar da yazırdı. Onun bu həyatda uğur qazana bilmədiyi sahə demək olar ki, yox idi. İranın Müdafiə Naziri vəzifəsinə qədər yüksəlmiş bu pak şəxsiyyətin həyatının ən maraqlı hissəsi Livanda yetimxana açdığı vaxtlara təsadüf edir. O yetim uşaqların yetimxanada, ərlərini döyüşdə itirən qadınların isə öz evlərində dolanışıqlarını təmin edə bilməsi üçün onların peşə öyrənməsinə çalışırdı. Bunun üçün İrandan usta da gətirmişdi. Şəhid Çamran döyüşlərdə şəxsən özü iştrak edirdi və sonuncu əməliyyatdan əvvəl nəql edirlər ki, hər kəslə, hətta onunla birgə əməliyyatda iştrak edəcək olan döyüşçü yoldaşları ilə də vidalaşmışdı...


Təşkilatlanmış dünyada təşkilatsız hərəkət etmək istəsək, çox sadəlövlük etmiş olarıq...
Şəhid Musa Sədr

# Şəhid Musa Sədr

İmam Musa Sədr (1928-1978) universitet bitirmiş ilk ruhani olmuşdur. O şiə olmasına baxmayaraq həm sünnülər, həm də xristianlar tərəfindən çox sevilirdi. İmam Sədr həm də yeganə ruhani idi ki, kilsədə xütbə oxuyurdu. 1978-ci ildə Qəddafinin dəvəti ilə Liviyaya səfər etdi və bir daha İmam və yoldaşlarından xəbər alınmadı. Həmin ərəfələrdə 3 ölkədə islam inqilabı gözlənilirdi; İraq, Livan və İran. İraqdakı mümkün inqilab Muhəmməd Baqir Sədr tərəfindən gerçəkləşəcəkdi. O Musa Sədrin əmisi oğlu idi. Musa Sədr əmisi oğluna Nəcəfdə İmam Xomeynini qorumağı tapşırmışdı. Səddam Hüseyn Baqir Sədr və bacısı Aminə Sədri şəhid etdi və beləcə baş verəcək olan inqilabı yatırmış oldu. Livandakı inqilab isə Musa Sədr tərəfindən gözlənilirdi. Sionistlər Livanda baş verə biləcək inqilabın qarşısını almaq üçün Qəddafinin əli ilə İmamı oğurladılar. İrandakı inqilabı isə yatırmaq mümkün olmadı. İmam Xomeyni islam hökuməti qurmağa nail oldu. İran Qəddafiyə qarşı cinayət işi açdı və beynəlxalq məhkəmədə Qəddafinin cinayətkar olduğunu sübuta yetirdi. Lakin İnsan Haqları Məhkəməsi qanuni hökmü icra etmədi...


Seyyid nəvəsi olaraq bunu etməliyəm...
Şəhid Mübariz İbrahimov

# Şəhid Mübariz İbrahimov

Mübariz İbrahimov 1988-ci il Fevral ayının 7-də Biləsuvar rayonunda anadan olmuşdur. Hərbi xidmətini Daxili Qoşunların Xüsusi Təyinatlı Bölüyündə keçirmiş, sonradan Həzrəti Həkimə ziyarətgahının təmirində pulsuz çalışmışdır. Öz arzusu ilə cəbhə bölgəsində hərbi xidmətə yollanan Mübariz 18 İyun 2010-cu il, gecə saat 23:30-da iki ordu arasındakı minalanmış sahəni keçərək düşmənə ağır zərbələr endirmişdir. O düşmənin silahlarından istifadə edərək 5 saat ermənilərə qarşı təkbaşına döyüşmüşdür. Hadisənin səhəri günü Mübarizin atasına zəng gəlir və oğlunun evə gəlib gəlmədiyi soruşulur. Bildirilir ki, çoxlu silahlar götürərək ərazidən uzaqlaşmışdır. Mübarizin atası isə belə cavab verir: Mən oğlumu tanıyıram, siz sərhəddə tərəf gedin! Sonra isə Şəhidin valideynlərinə yazdığı məktub tapılır. Ermənilər Mübarizin nə’şini 141 gün özlərində saxlayırlar. Nəhayət 6 Noyabrda Mübarizin pak bədəni ermənilərdən geri alınır və İkinci Fəxri Xiyabanda dəfn edilir. Seyyid Mübariz namaz qılan idi. Ən böyük arzusu da səngərdə daim namaz qılanların olması idi...


Mübarizə zamanı insana lazım olan əsas şey fiziki gücü deyil, ruh və mənəviyyatıdır. Fiziki çox da güclü olmadığı halda güclü cihad ruhuna sahib şəxslər görə bilərsiniz...
Şəhid İmad Muğniyə

# Şəhid İmad Muğniyə

İslami müqavimətin memarı-Şəhid İmad Muğniyə (1963-2009) Amerika və Avropa ölkələrinin Livanı tərk etməsinə  səbəb olmuş 1983-cü il hadisələri və 2006-cı ildə İsrail  üzərindəki  böyük  qələbəsi ilə hafizələrdə yaşayır. İmadın Hizbullahdakı təsir qüvvəsinin Nəsrullahdan daha artıq olduğu iddia edilir. Bir əməliyyat ilə 241 amerikalı əsgəri məhv edərək adını tarixə Vyetnamdan sonra  ABŞ-a ən böyük zərbə vurmuş şəxs kimi yazdı. İmad İsraili məğlub etmiş yeganə ordunun komandiri idi... 40 ölkə tərəfindən 20 il beynəlxalq axtarışa  verilmiş İmad Muğniyə hələ 20 yaşlarında ikən  öz  döyüş taktikaları ilə hamını təəccübləndirirdi. CIA  onun başına 5  milyon  dollar  pul  qoymuşdu.  Həmişə gizli yaşayan və dəfələrlə sui-qəsdə məruz qalan Şəhid Muğniyə  46  illik  ömrünü  məhdud  sayda insanla kontaktda olaraq yaşamış  və  daim Hacı Rizvan adından istifadə  etmişdir.  2006-cı  ildəki qələbədən sonra İraq və Fələstindəki müqavimət ordularını vahid  cəbhədə  birləşdirməyə  çalışan Şəhid İmad Muğniyə 2008-ci  ildə ordu rəhbərləri ilə belə görüşlərinin birindən  ayrılarkən  bombalı hücuma  məruz  qalmış və şəhadətə  çatmışdır...


Eşq iki rəkətdir, dəstəmazı qanla alınır...
Şəhid Muhəmməd Behişti

# Şəhid Muhəmməd Behişti

Seyyid Behişti (1928-1981) İsfahanda anadan olmuşdur. O gənclik illərində qərb fəlsəfəsini öyrənmək üçün Avropaya yollanmaq istəmiş, lakin Əllamə Təbətəbai ilə islam fəlsəfəsi haqqında bəhs etdikdən sonra bu fikrindən daşınmışdır. İnqilabi fəaliyyətləri səbəbilə SAVAK tərəfindən təqiblərə məruz qalmış və nəhayət Qumdan Tehrana sürgün edilmişdir. 1964-cü ildə təbliğat üçün İranı tərk edərək Almaniyanın Hamburg şəhərinə yollanmışdır. 5 il sonra İrana səfəri zamanı ölkədən çıxışına qadağa qoyulmuş və sonradan bir neçə dəfə həbs edilmişdir. İslam inqilabı mərhum İmamın rəhbərliyi ilə qələbə çaldıqdan sonra Şəhidin siyasi-ideoloji mübarizəsi rəsmi və daha intizamlı şəkildə davam etdi. Hər sahədə düşmənin belini qıran Seyyid İslam Partiyasının binasında 72 nəfərlə birgə 53 yaşında terror qurbanı oldu. Partlayışdan əvvəl "sanki bura cənnət qoxur" demişdi. Ayətullah Xamenei onun haqqında buyurmuşdur: "Behiştinin şəhadəti onun şəxsiyyətini tamamladı. Təbii şəkildə ölüm onun üçün dəyərsiz olardı..."


Düşmənin tikanlı tellərindən keçmək istəyirsənsə,
əvvəl gərək nəfsinin tikanlı tellərindən keçəsən...
Şəhid Əli Çitsazi

# Şəhid Əli Çitsazi

Şəhid Əli Çitsazi (1962-1987) İranın müqəddəs müdafiə illərinin məşhur komandirlərindəndir. O, uzun illər boyu zalım Səddam rejiminə qarşı döyüşmüş və yaxın dostlarını bu müharibədə itirmişdi. Çatdığı hər yerdə insanlara mərhum İmamın sözünə əməl etmələrini və səngərləri əsla boş qoymamalarını tapşırırdı. Şəhadət şərbətindən nuş edə bilmədiyi üçün həmişə məyus idi. Deyirdi ki, “necə olur axı qardaşım Əmir dörd ay döyüşdükdən sonra şəhid oldu, amma mən 7 ildir bu yoldayam və şəhid ola bilmirəm, görəsən niyə Allah məni qəbul etmək istəmir?!”... Günlərin bir günü yuxuda şəhid dostu Museyib Məcidini (r) görmüş və ondan şəhadətin sirrini soruşmuşdu. O isə “göz yaşı” deyə cavab vermişdi. Əli ağa həmin gündən sonra hər gecə sübhə qədər ağlamış və uca Allahdan şəhadət istəmişdi. Xanımı deyir ki, onun Allahla görüş və şəhadətə olan rəğbəti yeni doğulacaq körpəsini görmək istəyindən daha artıq idi və övladını görmədən aramızdan ayrıldı. Əli öz şəhadəti ilə bütün şəhadətpərvər insanlara bu işin sirrini açmış oldu-GÖZ YAŞI...


Uniformam təmiz insanların qanına boyandı.
Bundan şərəf duyuram...
Şəhidə Rəzan Nəccar

# Şəhidə Rəzan Nəccar

Rəzan Nəccar (1997-2018) İsrail əsgərlərinin gülləsi ilə şəhid edilərkən 21 yaşında idi. O, yaralılara tibbi yardım üçün döyüş meydanına daxil olur, qaz bombalarının tüstüsü arasında və ən çətin şəraitdə öz müqəddəs vəzifəsini layiqincə yerinə yetirirdi. Əyninə geyindiyi ağ tibb bacısı xalatı onun toxunulmazlıq bayrağı olmalı idi. Amma heç bir beynəlxalq qayda tanımayan vandal İsrail hökuməti onun həmin bəyaz xalatını qırmızı qanına boyadı. Rəzan cümə günü, iftara 1 saat qalmış, oruc halda dünyadan köçdü. Aparılmış xüsusi araşdırma nəticəsində Rəzan Nəccarı şəhid edən İsrail hərbiçisinin Amerikadan gətirilmiş muzdur snayperçi olduğu ortaya çıxdı. Şəhadətindən əvvəlki müsahibəsində yaralılara tibbi yardım üçün gedərkən dəfələrlə israillilər tərəfindən hədəf alındığını və onun tibb bacısı olduğunu gördükləri halda bilərəkdən güllə atıldıqlarını bildirmişdi. BMT onun qəsdən öldürüldüyünü təsdiqlədi və İsraili buna görə sadəcə qınadı. İsrailin verdiyi cavab isə bu cümlədən ibarət idi; Rəzan Nəccar mərhəmət mələyi deyildi...


Ya hürr insanlar kimi yaşayarıq, ya da ölərik. Üçüncü bir yol yoxdur!...
Şəhid Baqir Nimr

# Şəhid Baqir Nimr

Şəhid Baqir Nimr (1958-2016) mənfur Səudiyyə hökümətinin qətlə yetirdiyi şiə alimidir. O, Qum şəhərində və Suriyada təhsil almış, Səudiyyəyə döndükdən sonra Hz.Qaim Elm Mərkəzini təsis etmişdir. Ölkədə şiələrə qarşı aparılan amansız repressiya siyasətini daim tənqid edir və Bəqi qəbristanında Səudiyyə hökümətinin dağıtdığı 4 İmamın qəbrinin düzəldilməsi üçün mübarizə aparırdı. Hər il aksiyalar təşkil edir, çıxışlarında atadan oğula ötürülən nəsil hakimiyyətinin din ilə uyğun gəlmədiyini dilə gətirməklə Səudiyyə rejimi xəlifələrini hədəf alırdı. Bu fəaliyyətlərinə görə Şeyx dəfələrlə həbs edilmiş və ayağından güllə yarası belə almışdır. Şəhid Nimr sonuncu dəfə həbs edilərkən barəsində edam hökmü verilsə də Səudiyyə rejimi Ayətullah Nimrin üzr istəyəcəyi halda azad ediləcəyini bildirmişdi. Bu təkliflə razılaşmayan Şeyx bütün dünyanın gözü qarşısında edam edildi. Edamın ardından iranlılar etiraz əlaməti olaraq Səud rejiminin səfirliyini yandırdı. Hal-hazırda səfirliyin olduğu həmin küçəyə də Şeyx Nimrin adı verilmişdir...


Biz öz halallarımızdan keçdik. Bəs siz haramlardan keçə bildinizmi?!...
Şəhid İbrahim Hadi

# Şəhid İbrahim Hadi

Məzarsız pəhləvan Şəhid İbrahim Hadi (1957-1983) həyatının bütün sahələrində müsəlman gənclər üçün örnək sayıla biləcək bir şəxsdir. Əgər ixlas və sadəlik bir insan simasında zahir olsaydı, mütləqdir ki, Şəhid İbrahim Hadinin görünüşünü alardı. İbrahim pəhləvan idi, ilin müəllimi idi, inqilabın fəallarından idi, müəzzin idi, çempion idi, ordu rəhbəri idi, amma onu İbrahim Hadi edən bu sadalananlar deyil, yalnız və yalnız Allah üçün xalisanə etdiyi əməlləridir. Onu tanımaq üçün barəsində yazılmış kitabı oxumaq çox vacibdir. Şəhidin həyatını mütaliə etdikdən sonra islamı qəbul edən insanlar belə olmuşdur. O elə bir nurdur ki, aramızda deyil, amma işıq saçır və yol göstərir, atəşi yoxdur, amma ona yaxınlaşanların qəlbinə eşq atəşi salır, qəbri yoxdur, zəvvarı var. Dünyadan iki İbrahim keçdi. Birini mancanağa qoyub oda atdılar, od gülüstana çevrildi. Digəri isə döyüş yoldaşlarını geri göndərib, mancanağa oturdu və özünü atəşin içinə atdı. Amma od gülüstana çevrilmədi. İbrahimin eşqinin atəşi odu belə yandırıb külə çevirdi... Salam olsun İbrahimə...


Mən şəhidlərə nə qədər eşq bəsləmişəm...
Necə ki, göyərçinlər hər zaman səmaya meyl edərlər...
Şəhid Muhəmməd İbrahim Himmət

# Şəhid Muhəmməd İbrahim Himmət

Himmət (1955-1984) İranın müqəddəs müdafiə illərinin məşhur komandirlərindəndir. O, hələ islam inqilabından əvvəl şahın heykəlini aşırtmış və rejimə qarşı silahlı mübarizəyə başlamışdı. Həmin ərəfələrdə həkim olmaq üçün universitet oxuyur və həmçinin idman müəllimi kimi çalışırdı. İnqilabın genişlənməsi ilə işini və təhsilini də yarımçıq qoymuş və mübarizəyə qoşulmuşdu. İnqilabın qələbəsindən sonra isə bütün həyatını islami nizamın ayaqda qalmasına sərf etdi və bu yolda hər şeyindən keçdi. Şəhid Himmət Təhsil Nazirliyi tərəfindən Sepaha müəllimlik ixtisası ilə göndərilməsinə baxmayaraq daim ön xəttə yollanır və ağır döyüşlərdə şəxsən iştrak edirdi. Yüksək döyüş bacarığı sayəsində orduda rütbəsi yüksəlməyə başladı və xalq tərəfindən o qədər sevildi ki, parlament seçkilərində iştrak etməsi üçün millət özü ona müraciət etdi. O isə bəsic könüllülərinin yanında qalmağı hər şeydən üstün tutduğunu bildirdi. Öz vəsiyyətində göyərçinlərin səmanı sevdiyi kimi şəhadəti sevdiyini və İmam Hüseyn (ə) ilə vüsalın həsrətilə yaşadığını yazırdı. İmam Hüseyn (ə) kimi də başsız şəhadətə çatdı...


Mənə İbrahim Hadi deyin...
Şəhid Muhəmməd Hadi

# Şəhid Muhəmməd Hadi

Şəhid Muhəmməd Hadi Zülfüqari (1989-2015) dövrümüzün İbrahim Hadisi adını almış hərəm müdafiəçisidir. O, Nəcəfdə hövzə oxumasına baxmayaraq aylıq şəhriyyə almaqdan imtina etmişdi və işləyərək özünü dolandırırdı. Allaha yetişməyin yolunu yalnız halal-harama diqqətdə bilirdi. Gecələr hövzənin yataqxanasında işığı yandırmır və soyuq koridordakı işığın altında oturaraq bəsicilik imtahanına hazırlaşırdı. Ona etiraz edənlərə isə cavab verirdi ki, bu dərsi özüm üçün oxuyuram və əsla beytül-malın pulu ilə yanan lampanın işığını şəxsi işlərimə istifadə etmərəm. Eynən Əmirəl-mö'minin kimi. Sendviç satıb dolanışığını təmin edən bu gəncin müdürü deyir ki, o, yeniyetmə olmasına baxmayaraq bir dəfə də olsun başını qaldırıb naməhrəm qızlara baxmazdı. Hadi deyirmiş ki, günahkar gözlərə şəhidlik yaraşmır... Amma şəhidlik Hadiyə çox yaraşırdı. Sanki şəhidlik libası elə Hadi üçün biçilmişdi. O, Hz.Zeynəb hərəminin müdafiəsi zamanı şəhadətə çatdı və öz vəsiyyəti ilə İraqın Vadiüs-Səlam qəbristanında dəfn edildi. İranda da Şəhid üçün simvolik bir qəbir qoyulmuşdur...


Xalqın hüququnu qəsb etmiş adamlara
rəhm etmək xainlikdir...
Şəhid Muhəmməd Xiyabani

# Şəhid Muhəmməd Xiyabani

Şeyx Muhəmməd Xiyabani (1880-1920) ömrünü azadlıq mübarizəsinə həsr etmiş bir liderdir. Şəhid həm ana tərəfdən Seyyid Əli Xameneinin qohumu, həm də bibisinin əri olmuşdur. Hələ cavan yaşlarında dövrünün müctəhidlərindən biri və Təbrizin Xiyaban məhəlləsindəki Hacı Kərim Xan məscidinin imamı və vaizi idi. Şeyx İranın şimalının ən ağır və böhranlı zamanında inqilabi hərəkata qoşulmuş, həm daxili qüvvələr, həm də xarici dövlətlər əleyhinə fəal mübarizə aparmışdır. Osmanlı ordusunun Təbriz və Urmiya şəhərlərini işğal etməsinin əleyhinə çıxan Şeyx Xiyabani 1919-cu ilin Avqust ayında silahdaşları ilə birgə Nuri Paşa rəhbərliyi altındakı Osmanlı Beşinci Piyada Diviziyası (Qafqaz İslam Ordusu) tərəfindən həbs edilərək Qarsa gətirilmiş və daha sonra sürgünə göndərilmişdir. Sürgündən qayıtdıqdan sonra Qacarlar əleyhinə qiyam qaldırmış və nəhayət şəhid edilmişdir. Bu pak və azadlıqsevər şəhidin cəmi 3 ay ömür sürmüş və var gücü ilə imperialist qüvvələrə qarşı vuruşmuş hököməti də "Azadistan" adlanırdı...


Məhşərin zülmətində bütün gözlər ağlar qalar. Gecələr Allah yolunda oyaq qalan və Onun qorxusundan ağlayan gözlərdən başqa...
Şəhid Mürtəza Avini

# Şəhid Mürtəza Avini

Şəhid Mürtəza Avini (1947-1993) 80-dən artıq sənədli müharibə filmləri çəkmiş rejissordur. “Su qabı su yolunda sınar” məsəlinə uyğun olaraq film çəkərkən minaya düşərək mələkut aləminə pərvaz etmişdir. Ayətullah Xamenei onu “Şəhid Ədəbiyyatının Seyyidi” adlandırıb. Avini İslam İnqilabından sonra həmkarlarından fərqli olaraq siyasət meydanına girməyi deyil, filmlər çəkərək inqilaba xidmət etməyi üstün tutmuşdu. Səyləri nəticəsində “İslam Kinosu” janrını yaratmışdır. O, nə Rza şah zamanında İran kinomatoqrafiyası sahəsində çalışanlarla işləyir, nə də film çəkilişində Amerikansayağı metodlardan istifadə edirdi. Avininin şəhadətə çatdığı gün (20 Fərvərdin) İranda İslam İnqilabı sənəti günü kimi qeyd edilir... Mürtəza Avini öz vəsiyyətnaməsində belə yazır; Yaşamaq gözəl, şəhadət isə ondan da gözəldir. Vücudumuzun salamatlığı gözəldir, amma eşq quşu vücud bağında qəfəsdə imiş kimi görünür... Boyunlar eşq Kərbəlasında rahat kəsilsin deyə incə xəlq edildi və bəni-Adəm Hüseyni başdan keçəcək qədər sevəcəyi barədə Allahla əhd bağladı...

